

*İlham Abbasov,*
*hüquq üzrə fəlsəfə doktoru,*
*baş ədliyyə müşaviri*

# SÜD QƏBULU MƏNTƏQƏSİNDƏ

## (novella)

**Nəql edəcəyim hadisə ötən əsrin-XX əsrin 80-ci illərində, başqa sözlə, Sovetlər dönəmində baş vermişdi. Mart ayının axırıncı ongünlüyü idi.**

Prokuror təyin edilməyimin ilk günlərində rayon Statistika idarəsindən sorğu edib aldığım məktubdan mənə məlum idi ki, rayonda süd qəbulu məntəqəsi də fəaliyyət göstərir.

Sovetlər dönəmində qüvvədə olan qanunvericiliyə əsasən prokurorluq orqanlarının ümumi nəzarət fəaliyyəti var idi. Prokurorluq orqanları səlahiyyətləri daxilində bütün nazirlik, dövlət komitələri, idarə, müəssisə, təşkilat, rayon xalq deputatları Sovetləri icraiyyə komitələrinin, vəzifəli şəxslər, habelə, vətəndaşlar tərəfindən qanunların dürüst və eyni cür icra olunmasına ali nəzarəti həyata keçirirdilər. Lakin bu müddətdə məntəqədən rayon prokurorluğuna heç bir şikayət, məlumat daxil olmamışdı. Ona görə də bu haqda belə bir yoxlama aparılmasını prokurorluğun iş planına daxil etməmişdim.

Həftənin axırıncı iş günü idi. Rayon Partiya Komitəsinin birinci katibi daxili telefonla mənə zəng edib yanına dəvət etdi. Təxminən 10-15 dəqiqədən sonra rayon partiya komitəsi birinci katibinin qəbul otağında idim. Birinci katibin qəbul otağında oturan texniki katibəsi daxili telefonun trubkasını qaldırıb, mənim gəlməyimi birinci katibə məlumat verdi. Katibə xanım telefonun dəstəyini yerinə qoyan kimi dedi:

- Buyurun keçin, birinci katib sizi gözləyir.

Mən otağa daxil olub birinci katiblə salamlaşdıqdan sonra kabinet sahibi mənə əyləşmək üçün yer göstərdi. Mən əyləşdikdən sonra o dedi:

- Prokuror, məndə olan məlumata görə, üzümüzə gələn həftə, yaxud o birisi həftə rayonumuza "Mozalan" satirik televiziya-jurnalının yaradıcı heyəti gələcək, əsasən maldarlıq fermalarının işi ilə maraqlanıb, çəkiliş aparacaqlar.

Oxuculara aydın olsun deyə bildirim ki, həmin dövrdə "Mozalan" satirik-televiziya jurnalı respublikanın ictimai həyatında böyük rol oynayırdı. Əvvəllər bu missiyanı "Kirpi" jurnalı həyata keçirirdisə, ötən əsrin 80-ci illərində artıq bu funksiyanı "Mozalan" satirik televiziya-jurnalı yerinə yetirirdi. "Mozalan" satirik televiziya-jurnalı həmişə kəskin sujetli olmaqla, idarə, müəssisə və təsərrüfatlarda olan nöqsan və çatışmamazlıqları ciddi tənqid edirdi. Ədalət naminə demək lazımdır ki, tanınmış şair və jurnalist Eyvaz Borçalı həmin televiziya jurnalının baş redaktoru olduğu müddətdə televiziya jurnalının cəmiyyətdə mövqeyi və verilişlərin kəsəri əhəmiyyətli dərəcədə artmışdı.

Rayon Partiya Komitəsinin birinci katibi mənə dedi ki, təsərrüfatların bir neçəsində və rayon süd qəbulu məntəqəsində olub, gördüyünüz nöqsanların aradan qaldırılmasına öz töfsiyə və tapşırıqlarınızı versəniz yaxşı olar. Mən birinci katiblə sağollaşıb, iş yerinə qayıdıb, növbəti-ikinci rübün iş planının əl yazısını tərtib etdim və makinada çap etməsi üçün prokurorluğun dəftərxana katibinə verdim.

İlk dəfə rayon mərkəzində yerləşən süd qəbulu məntəqəsinin fəaliyyəti ilə maraqlandım və buna görə də süd qəbulu məntəqəsinə getdim. Məntəqə təxminən yerdən 3 qıç pilləkənli birmərtəbəli binadan ibarət idi. Eyvandan keçib iri otağa daxil oldum və məni qarşılayan məntəqə müdiri ilə tanış oldum. Otağın ortasında iri paslanmayan metal çən vardı. Təsərrüfatlardan göndərilən alüminium bidonlardakı südü həmin vannaya boşaldırdılar.

Açığını deyim ki, ilkin tanışlıq zamanı məntəqənin ümumi görünüşü mənim xoşuma gəlmədi. Belə ki, məntəqədə natəmizlik hökm sürürdü. İşçilərin geydikləri xalatlar kirli idi. Dəmir vannadakı südün vəziyyəti də işçilərin xalatından geri qalmırdı. Orada gördüyüm bir epizod isə məni xüsusilə təəccübləndirdi. Südün töküldüyü iri vannanın bir tərəfində təxminən bir metr məsafədə 6-7 emallı birlitirlik süd qabları mənim diqqətimi cəlb etdi. Məntəqə müdirindən bu qabların nə üçün bura qoyulduğunu soruşdum. Bunu görən məntəqə müdiri çox pərt oldu və başını aşağı dikərək susdu. Fikirləşdim ki, yəqin müdir məni başa düşmədi. Ona görə bu qabların kimə məxsus olmasını və bura nə üçün qoyulmasını təkrar soruşdum. Müdir yenə dinmədi, hiss etdim ki, o suala cavab verməkdə çətinlik çəkir. Ona görə də bu sualı təkrar soruşdum. Bu zaman işçilərdən bir qadın mənə yaxınlaşıb dedi ki, bu süd qabları rayonun bir sıra rəhbər işçilərinindir. Bu sözü eşitcək məntəqə müdirinə dedim ki, bir də bu qabları burada görməyim.

Səhəri günü məntəqəyə bir də baş çəkdim və gözümlə gördüyümə inanmadım: yenə həmin qabları südün qəbulu vannasının yanında eyni ardıcıllıqla düzülməsini gördüm. Mən ora yaxınlaşıb sarı rəngdə olan emallı birinci süd qabını götürüb, məntəqənin həyətinə tulladım və dedim:

-Axı, dünən mən sizə dedim ki, bu qabları bir daha məntəqədə görməyim.

Dünənki həmin qadın mənə dedi ki, bu həyətə atdığınız südqabı rayonun yüksək vəzifəli şəxsinə məxsusdur.

Üzümü məntəqə müdirinə tutub dedim ki, heç bir vəzifəli şəxsə, o cümlədən, rəhbər vəzifəli şəxsə qanunun tələbini pozmağa yol verilmir. Onu da əlavə etdim ki, bir də belə hal aşkar olunarsa, bu haqda müvafiq tədbir görüləcəkdir.

Orada mənə aydın oldu ki, kolxoz və sovxozlarda, bir sözlə, təsərrüfatlarda sağılmış südlər təsərrüfatın özündə keyfiyyət göstəriciləri təhlil edilmədən süd qəbulu məntəqəsinə gətirilir və məntəqədə aparılmış təhlilə görə təhvil verilir. Bu isə məntəqə tərəfindən təsərrüfatların aldadılması ilə nəticələnir. Vəziyyət barədə məntəqə müdirinə bildirdim ki, bu gündən sonra keyfiyyət göstəriciləri təhlil edilmədən südü qəbul etmirsiniz, buna sizin ixtiyarınız yoxdur. Əgər belə hal bir daha aşkar olunarsa, buna təsərrüfatların aldadılması kimi qiymət veriləcəkdir. Üzümü məntəqə müdirinə tutub dedim:

- Sizə aydın oldumu?

Məntəqə müdiri, sadəcə olaraq, başını yelləməklə razı olmasını bildirdi.

Kolxoz və sovxozlarda aparılan yoxlamalar zamanı da bir daha təsdiq olundu ki, bəzi təsərrüfatlarda sağılan südün keyfiyyət tərkibi müəyyən edilmədən rayon süd qəbulu məntəqəsinə təhvil verilir, məntəqə işçiləri isə bu vəziyyətdən istifadə edib, özlərinin müəyyən etdiyi nəticələri qaiməyə yazırlar. Ona görə də süd qəbulu məntəqəsinin müdirini prokurorluğa dəvət edib, ona gələcəkdə bir daha belə hallara yol verməkdən çəkindirmək haqda rəsmi xəbərdarlıq etdim.

Növbəti həftənin birinci günü mənə məlumat çatdı ki, "Mozalan" satirik telejurnalının çəkiliş qrupu artıq rayona gəlib və sovxozların birinin fermasında çəkilişə başlayıb. Təxminən iki saatdan sonra mənə məlumat çatdı ki, çəkiliş qrupunun üzvləri mal-qara fermasında videoçəkiliş aparərkən qrupun üzvlərindən biri elektrik cərəyanın gərginliyi altına düşüb, buna görə də videoşəkilişləri dayandırıb bütün heyət Bakıya qayıdıblar.

Rayonun təsərrüfatlarında aparılmış yoxlamalar zamanı rayonun ayrı-ayrı təsərrüfatlarında daha bir sıra qanunsuzluq və təsərrüfatsızlıq halları aşkar edildi. Aşkar edilmiş qanunsuzluqların aradan qaldırılması üçün prokurorluq tərəfindən rayon xalq deputatlar Soveti icraiyyə komitəsinə təqdimat, rayon partiya komitəsinə isə arayış təqdim edildi.

**Prokurorluq tərəfindən aparılmış yoxlama qısa müddətdə öz müsbət nəticəsini göstərdi. Rayonda süd istehsalı və təhvilində nəzərəçarpacaq dərəcədə dəyişiklik oldu və rayon partiya komitəsinin birinci katibi növbəti plenum iclasındakı məruzəsində prokurorluğun bu müsbət işini xüsusi qeyd etdi...**